**"Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 29 dekabr tarixli 241-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, 4, maddə 79; 1993, 5, maddə 132; Azərbaycan Respublikasının 1995-ci il 2 may tarixli 1030 nömrəli Qanunu; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 5, maddə 378; 1998, 1, maddələr 15, 16; 1999, 4, maddə 228, 5, maddə 286; 2001, 6, maddələr 362, 363, 11, maddə 694, 12, maddələr 731, 736; 2004, 2, maddə 57, 3, maddə 133, 4, maddələr 199, 212, 7, maddə 507, 8, maddə 596; 2005, 10, maddə 871, 12, maddə 1093; 2006, 4, maddə 312, 11, maddə 933; 2007, 6, maddə 561, 8, maddə 756, 11, maddələr 1053, 1078; 2008, 3, maddə 156, 6, maddələr 462, 481, 8, maddə 709, 12, maddə 1048; 2010, 3, maddə 171, 6, maddə 482; 2011, 2, maddə 71; 2014, 11, maddə 1333; 2015, 10, maddə 1085; 2016, 6, maddə 1011; 2020, 6, maddə 669, 7, maddə 826, 12 (I kitab), maddə 1425) 21-ci maddəsinin 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"3. Müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının uşaqlarına "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aylıq müavinət ödənilir.".

**Maddə 2.** "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, 21, maddə 590; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 5, maddələr 282, 293; 2001, 12, maddə 731; 2003, 10, maddə 539; 2004, 7, maddə 507; 2007, 5, maddə 401, 6, maddə 561; 2008, 7, maddə 602; 2016, 11, maddə 1764; 2019, 5, maddə 797; 2020, 7, maddə 826) 3-cü maddəsinin ikinci hissəsinin üçüncü abzası ləğv edilsin.

**Maddə 3.** "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, 23-24, maddə 685; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 6, maddə 451; 1999, 5, maddə 293; 2001, 12, maddələr 731, 736; 2004, 7, maddə 507; 2007, 5, maddə 401, 6, maddə 561, 11, maddə 1078; 2008, 7, maddə 602; 2019, 3, maddə 379, 5, maddə 797, 8, maddə 1382; 2020, 7, maddə 826) 12-ci maddəsinin 7-ci bəndi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 iyun 2021-ci il
345-VIQD